# Azərbaycanın sülh siyasəti beynəlxalq miqyasda təqdir edilir

**Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi təkcə fərdi mükafatlandırma deyil, Azərbaycanın son illərdə həyata keçirdiyi sülh siyasətinin beynəlxalq miqyasda qəbul və təqdir olunmasının bariz göstəricisidir. Fondun rəsmi məlumatında vurğulandığı kimi, bu mükafat Qafqazda onilliklər boyu davam etmiş münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə təqdim olunur.**



Milli Məclisin deputatı Sevil Mikayılova "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Şeyx Zayed Fondu BƏƏ-nin mərhum qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın irsini yaşadan, dialoq, tolerantlıq, multikulturalizm və birgəyaşayış dəyərlərini təşviq edən ən nüfuzlu beynəlxalq platformalardan biridir: ""Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülhün, qarşılıqlı anlaşmanın və humanist liderliyin simvolu hesab olunur. Bu mükafata layiq görülmək yalnız regional deyil, qlobal miqyasda müstəsna siyasi və mənəvi məsuliyyətin göstəricisi kimi dəyərləndirilir. Mükafatçıların dialoq və birgəyaşayış sahəsində tanınmış mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilməsi onun obyektivliyini və nüfuzunu daha da artırır".

Deputat Şeyx Zayed Fondunun Baş katibi Məhəmməd Əbdülsəlamın açıqlamasına xüsusi diqqət çəkərək deyib: "Baş katib bildirib ki, bu il "Zayed İnsan Qardaşlığı Mükafatı" komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur. Əslində, bu mükafat bir daha sübut edir ki, Azərbaycan müharibədən sonra revanşizm və qeyri-müəyyənlik deyil, dayanıqlı sülh və qarşılıqlı tanınma yolunu seçib".

S.Mikayılova qeyd edib ki, Prezident İlham Əliyevin liderliyi - hərbi qələbəni siyasi və diplomatik qələbə ilə tamamlayan lider modeli müasir beynəlxalq münasibətlərdə nadir hallarda rast gəlinən bir nümunədir. 44 günlük Vətən müharibəsində əldə olunan qəti qələbədən sonra Azərbaycanın sülh təşəbbüsləri regionda yeni reallıqlar formalaşdırıb. Ölkəmizin seçdiyi sülh yolu asan olmayıb. "Ermənistan daxilində revanşist dairələrin sülh prosesini pozmaq cəhdləri, xarici təsir mərkəzlərinin regionda yeni gərginlik yaratmaq səyləri fonunda Azərbaycan prinsipial və qətiyyətli mövqe nümayiş etdirib. Rəsmi Bakı açıq şəkildə bəyan edib ki, sülh alternativsizdir və bu proses Azərbaycanın milli maraqları çərçivəsində reallaşmalıdır. Məhz bu qətiyyət nəticəsində 2025-ci ilin avqustunda Vaşinqtonda aparılan danışıqlarla məsələyə faktiki olaraq nöqtə qoyuldu və regionda uzunmüddətli qarşıdurma riski aradan qaldırıldı", - deyə Sevil Mikayılova əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycanın münaqişənin həllində ortaya qoyduğu model artıq beynəlxalq səviyyədə öyrənilən və müzakirə olunan təcrübəyə çevrilib. Ərazi bütövlüyünün bərpası, beynəlxalq hüququn təmin edilməsi, bundan sonra sülhə əl uzadılması nadir hallarda rast gələnən ardıcıllıqdır. "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim olunması göstərir ki, dünya birliyi Azərbaycanın bu yanaşmasını təkcə regional uğur deyil, qlobal sülh üçün nümunə kimi qiymətləndirir. Mükafatın fevralın 4-də Əbu-Dabidə təqdim olunması isə Azərbaycanın beynəlxalq siyasi nüfuzunun daha da möhkəmləndiyini təsdiqləyəcək. Nəticə etibarilə bu mükafat bütövlükdə Azərbaycanın ədalətə, sülhə və dayanıqlı inkişaf modelinə sadiqliyinin rəsmi beynəlxalq etirafıdır.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 31 yanvar (№19).- S.5.